# ÖZ MEHVƏRI ƏTRAFINDA QULDURLUQ EDƏNƏ ƏLI (ƏLEYHISSALAM)-IN KƏSKIN SIFARIŞI

<"xml encoding="UTF-8?>

ÖZ MEHVƏRI ƏTRAFINDA QULDURLUQ EDƏNƏ ƏLI (ƏLEYHISSALAM)-IN KƏSKIN-84 SIFARIŞI

Əli (əleyhissalam)-ın xilafətinin birinci ili idi. Əş”əs ibni Qeys ki, Osman tərəfindən Azərbaycanın valisi idi öz məqamında qaldı İmam Əli (əleyhissalam) öz ətrafındakı quldurluqdan xəbərdar idi. Buna görə də katibi Übeydullah ibni Əbi Rafiə Əş”əsə aşağıdakı məktubu yazmasını əmr etdi. O 36-cı ilin Şəban ayında məktubu yazdı və o məktub Ziyad ibni Mərhəb Həmədaninin vasitəsilə Əş”əsə çatdırıldı. Orada deyilirdi:

“Hakimlik məqamı sənin su və çörəyin üçün körpüyə çevrilməsin. Bəlkə bu məqam bir əmanətdir ki, sənin boynundadır, gərək özündən yüksək olan məqama itaət edəsən! Sənin haqqın yoxdur ki, millətə qarşı rə”y istebdadı ilə rəftar edəsən. Beytül-mal da gərək layiqli yerdə tam ehtiyatla sərf edilsin. Gərək Allahın mallarını mənə tərəf göndərəsən. Ümid edirəm ki, mən sənə pis rəis olmaram.”

Bu məktubun bir hisəsi idi. Məktubu bütövlükdə oxumaq istəyənlər Ayətullah Xoyinin “Nəhcül-bəlağə”-nin şərhi kitabının 17-ci cildinin 181-ci səhifəsinə müraciət edə bilərlər. Bu kitabda gəlmişdir: Elə ki, məktub Əş”əsə çatdı ayağa qalxıb camaat arasında çıxış edib dedi:

“Ey Camaat! Əmirəl-Möminin Osman məni Azərbaycanın hakimi təyin etdi və özü dünyadan getdi. İndi camaat Əli (əleyhis-salam)-la beyət ediblər. Biz Əli (əleyhis-salam)-ın da ardınca Osmanın ardınca getdiyimiz kimi gedəcəyik.

Əş”əs mənzilinə qayıtdıqdan sonra öz yaxın əshablarını çağırıb onlara dedi: Əli (əleyhissalam)-ın məktubu məni dəhşətə salıbdır. O, Azərbaycanın mallarını tələb edir. Bilin ki, mən (tezliklə) Müaviyəyə qovuşaram.” Əshab narahat olub dedilər:

Ölüm sənin üçün bu qərara gəlməkdən daha yaxşıdır. Nədən ötrü öz şəhər və qəbilənin camaatını buraxıb özünü Şam camaatının günah bataqlığında batırırsan?!

Əş”əs bu sözləri eşitdikdən sonra özünə gəlib qərarını həyata keçirməkdən həya etdi. Buna görə .də Kfəyə gəlib Əli (əleyhissalam)-la görüşdü və özünü Həzrətə təslim etdi